

**Əliqismət Lalayev,**
**Əməkdar incəsənət xadimi**

# Orta Asiyada yaşayan azərbaycanlıların teatr əlaqələrimizin inkişafında rolu

*Azərbaycanın teatr sənətini qonşu xalqlar arasında yayan Bakı artistlərinin göstərdikləri tamaşalar getdikləri yerlərdə bir məktəb rolunu oynayırdı. 1920-ci ilə qədərki dövrdə Türkmənistanda, Özbəkistanda, Tacikistanda yerli teatr həvəskarları səhnə sənətini həmin yerlərdə ilk dəfə çıxış edən Bakı artistlərinin tamaşalarından öyrənirdilər. Onlar getdikləri yerlərdə Azərbaycan dramaturqlarının əsərlərini əsasən Azərbaycan dilində oynayır, bəzən də tərcümə edərək, yerli dildə tamaşaçılara göstərirdilər.*

*Bakılı artistlərlə yanaşı Orta Asiyada yaşayan azərbaycanlı teatr həvəskarları da teatr işinin yayılmasında və genişlənməsində türkmən və özbək ziyalılarına yaxından kömək göstərirdilər.*

*1911-ci ilin mart ayında Novruz bayramı münasibətilə Səmərqənddəki "Üsuli cədid" məktəbində şagirdlərin xeyrinə özbək, tacik və Azərbaycan dillərində iki pyes oynanılmışdı. Bunlardan biri "Axşam səbri xeyir olar", digəri "Xor-xor" idi.*

Hər ikisi də azərbaycancadan təbdil və tərcümə edilmişdi. Tamaşanı Mahmud Xoca Behbudi və Nəzərqulu Səlimov təşkil etmişdilər; rejissorluq işini Ələsgər Ələsgərov görmüş, xəzinədarlıq işini isə Ağalar Axundov aparmışdı. Əslən azərbaycanlı olan Ələsgər Ələsgərov uzun müddət Özbəkistanda yaşamış, müəllimlik etmiş, Bakı qəzetlərinin müxbiri olmuşdu. O, Daşkənd, Səmərqənd, Fərqanə, Buxara və digər şəhərlərdə özbək dilində verilən tamaşalara rejissorluq etmişdir. Cəfakeş azərbaycanlı ziyalısı olan Ələsgər Ələsgərovun adına Azərbaycan və özbək dövri mətbuatında, Özbəkistan teatr tarixinə aid əsərlərdə tez-tez rast olunur. O, özbək teatrının təşəkkülü və inkişafında mühüm rol oynayan şəxsiyyətlərdəndir. 1911-ci ildən başlayaraq özbəkcə verilən tamaşalarda Ələsgər Ələsgərovun bir teatr təşkilatçısı, rejissor, rəhbər, aktyor, tərcüməçi, tənqidçi kimi adı hörmət və minnətdarlıq hissi ilə çəkilir. O, Özbəkistanda Mahmud Xoca Behbudi, Abdulla Övlani, Əbdülqədir Şəkuri, Əbdülvahab Muradi və başqaları ilə birlikdə teatr, mədəniyyət, maarif işi yolunda yorulmadan çalışmışdır. 1911-1919-cu illərdə Buxara, Səmərqənd, Daşkənd, Əndican, Oş, Xocənd və digər şəhərlərdə verilən tamaşaların əksəriyyətinin təşkilatçısı və fəal iştirak edənlərdən biri olmuşdur. Özbəkistanın o dövrkü mətbuatı yazırdı: "Möhtərəm Qafqazlı Ələsgər Ələsgərov cənablarının idarəsi altında 1915-ci il, martın 12-də (Ə.L.) özbək gəncləri "Əski Türkiyə" (Türk dramaturqu Rza Zəkinin pyesi - Ə.L.) və "Ac hərif-lər"i (Ə.Haqverdiyevin komediyası - Ə.L.) (azərbaycanca) müvəffəqiyyətlə oynadılar." [1, s.396] "Nəməngan gənclərinə və möhtərəm Ələsgər cənablarına təşəkkür edirik. Səmərqənddə də birinci türk dilində qoyulan teatra 3-4 il qabaq Ələsgər cənabları səbəb olubdur. Türküstanda Ələsgər əfəndinin teatr qoymadığı şəhər az qaldı. Onlarda da qeyrət edib tamaşa versə yaxşı olar" [yenə orada].

Özbək mətbuatında Ələsgər Ələsgərov haqqında yazılmış bu kimi təşəkkür dolu yazılara dəfələrlə rast gəlmək olar. Tanınmış özbək teatrşünası, "Özbək teatrı tarixi" kitabının müəllifi M.Rəhmanov Ələsgər Ələsgərovun Özbəkistanda teatr sahəsindəki fəaliyyətindən bəhs edərək yazır: "Azərbaycan və özbək teatr əlaqələri barədə fikir demək lazım gələrsə, inqilabdan əvvəlki yeni özbək teatrının təşkili dövründə daha iki azərbaycanlı rejissor haqqında da danışılmalıdır. Bunlardan biri Ələsgər Ələsgərovdur. O, Səmərqənddə və Daşkənddə ilk özbək teatrının pərdəsinin açılmasına yardım etmişdir.

İkinci Mirələkbər Talışınskidir. Bunlar Azərbaycan teatrının tanınmış rejissorları deyillər. Lakin o illərdə Avropa səhnə qaydalarını yaxşı bilən, teatrda çox çalışıb böyük təcrübə qazanmış teatr xadimləri idilər" [2, s.66].



Mətbuatın yazdığına görə, Ələsgər Ələsgərov 1911-ci il noyabr ayının 19-da Səmərqənddə Mirzə Məmməd Axundovun "Nidamət", Sultan Məcid Qənizadənin "Xor-xor" və "Dursunəli və ballıbadı" pyeslərini tamaşaya hazırlamışdı. Böyük müvəffəqiyyətlə keçən bu tamaşalara azərbaycanlılar və özbəklərlə yanaşı, rus və qeyri millətlərin nümayəndələri də həvəs və maraqla baxmışlar.

Yuxarıda adı hörmətlə çəkilən Mirələkbər bəy Talışınski 1913-cü ildə məsləkdaşı Muxtar Vəliyevlə birgə Bakıdan Aşqabada gəlir. Hər iki ziyalı buradakı teatr prosesinə fəal qoşulur və onun inkişafı üçün əllərindən gələni edirlər. Mirələkbər bəy Talışınski yerli həvəskarların iştirakı ilə "Yaman qardaş" (müəllif Əli Razi Şəmsizadə - Ə.L.) və "Daşım-daşım" (müəllif Mir Mahmud Kazımovski - Ə.L.) vodevillərini hazırlayır, Orta Asiyada, xüsusilə Özbəkistanda xalq teatrının inkişafına böyük əmək sərf edir. O, Aşqabaddan getdikdən sonra Mərvdə, Əfqanıstan sərhədi yaxınlığında, Taxtabazarda, Buxarada, Kətəqurqanda, Səmərqənddə, Nəmənkanda, Daşkənddə və Özbəkistanın digər şəhərlərində yerli həvəskarları ətrafına toplayaraq, məktəb və maarif işləri, yaralı əsgər ailələrinə kömək və digər xeyriyyə məqsədilə çoxlu tamaşalar göstərmişdir. Tamaşaçılar onun hazırlayıb göstərdiyi "Yaman qardaş", "Köhnə Türkiyə", "Axşam səbri xeyir olar", "Daşım-daşım" və başqa pyeslərin tamaşalarına böyük maraqla baxmışlar.

Muxtar Vəliyevə gəlincə demək lazımdır ki, o çox gənc olsa da, həm azərbaycanca və rusca mükəmməl savadı vardı, həm də gözəl səsə, aktyorluq bacarığına malik istedadlı bir şəxs idi. 1913-1915-ci illərdə Aşqabadda tamaşalar əsasən onun rəhbərliyi ilə göstərilirdi. O, qastrol tamaşaları ilə Tecan, Mərv şəhərlərində də çıxış edirdi. Özü Nadir şah, Sərvər ("O olmasın, bu olsun"), Əsgər ("Arşın mal alan"), Kərəm ("Əsli və Kərəm") kimi rolları oynayırdı.

1912-ci ilin yanvarında Səmərqənddə "Muzıkalno-dramatiçeskoe obşestvo" zalında N.Nərimanovun "Nadir şah" faciəsi Bakıdan gəlmiş artistlər - Əhməd Qəmərlinski və Sidqi Ruhulla tərəfindən "Şəkuri" məktəbinin xeyrinə ikinci dəfə oynanılmışdır. Bir neçə gün sonra həmin artistlər Kokandda "Kimdir müqəssir" əsərini və "Dursunəli və ballıbadı" vodevilini oynamışlar. Çarcodakı Şaraşidzenin sirk teatrında Sidqi Ruhullanın rejissorluğu və iştirakı ilə göstərilən "Nadir şah" pyesinin tamaşası böyük müvəffəqiyyət qazanmışdı. 1915-ci il, martın 13-də Buxarada azərbaycanlı gənclər Talışınskinin rejissorluğu ilə Qars və Ərdəhan qaçqınları xeyrinə türk dramaturqu Rza Zəkinin "Köhnə Türkiyə" və M.F.Mustafanın "Qatili Kərimə" adlı pyeslərini tamaşaçılara göstərmişlər. Daşkənddə Apollo teatrında Ə.Qəmərlinski, Y.Nərimanov və S.Ruhullanın iştirakı ilə (Məcnun - Sidqi, Leyli - Y.Nərimanov, Ağacəfər - Sidqi, Dursunəli - Qəmərlinski) həmin ilin 12 noyabrında göstərilən "Leyli və Məcnun" və "Dursunəli və ballıbadı" tamaşaları güclü təsirə malik olmuşdur. Daşkəndin Xivə teatrında həmin artistlərin şəhər gəncləri ilə birlikdə oynadıqları "Nadir şah Əfşar" tamaşası da müvəffəqiyyətlə keçmişdi. "Kolizey" teatrında Ə.Qəmərlinskinin iştirakı ilə göstərilən "Məkri zənan", "Ev tərbiyəsinin bir şəkli" tamaşaları da böyük maraqla qarşılanmışlar.

1917-ci il, noyabrın 21-də Daşkəndin Apollo teatrında "Gülüstan" truppası Sidqi Ruhullanın buraya gəlməsi münasibətilə N.Nərimanovun "Nadir şah" əsərinin tamaşasını göstərmişdir. Nadir şah rolunu Sidqi Ruhulla oynamışdır.

1919-cu ilin mart ayında Səmərqənddə iranlı və azərbaycanlı teatr həvəskarları tərəfindən "Müsəlman musiqili-dram cəmiyyəti" təşkil edilir. Onlar Baqişəmal məktəbi binasında həftədə iki dəfə tamaşa göstərməyə başlayırlar. Həmin dəstə mart ayının 22-də birinci olaraq Ü.Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasını tamaşaçılara göstərir. Bu tamaşa üç gün dalbadal oynanılır. "Mehnətkeşlər tavuşu" qəzeti yazırdı ki, "Müsəlman musiqi-dram cəmiyyəti" tərəfindən şəhərdə ilk dəfə olaraq Ü.Hacıbəyovun "O olmasın, bu olsun" operettası oynandı. Hacı İbad rolunda Həbibi Əfəndi. Oyunun tamaşaçılara təsiri haqqında bunu demək kifayətdir ki, hər dəfə tənəffüs vaxtlarında zaldan çıxan tamaşaçılar, bu oyunda yerlərində oturub, oyunun davamını səbirsizliklə gözləyirdilər [3].

Teatr işi təşkilati baxımdan da genişlənirdi. 1919-cu il, aprel ayının 11-də Daşkənd şəhərində Qafqazın azərbaycanlı gənclərinin yığıncağı keçirilmişdi. İştirakçılar xalqın mədəniləşməsi və maariflənməsi üçün xeyirli olan məsələləri müzakirə edib bir neçə maddədən ibarət tədbirlərin həyata keçirilməsini vacib hesab etmişlər. Üçüncü maddə teatr məsələsi olmuşdur. Yığıncağın sədri İsmayıl Həqqi demişdir ki, "Teatr qrupu həyatımıza aid səhnələrdə əski və yeni şəhərlərlə isbati-vücud etməkdədir" [4].

Səmərqəndin "Müsəlman-musiqili dram cəmiyyəti"nin 1919-cu il, iyulun 14-də "Mehnətkeşlər evi"ndə göstərdiyi "Arşın mal alan" tamaşası cəmiyyətin nüfuzunu daha da artırmışdı.

1919-cu il may ayında azərbaycanlı müəllim Heydər Əlibəyovun Daşkənddə təşkil etdiyi tamaşalar da az əhəmiyyətli olmamışdır.

Həmin il avqust ayında Daşkənd şəhər teatrında "Karl Marks" adına dəstə Məmməd Səid Ordubadinin "Əndalisin son günləri" əsərini tamaşaçılara göstərmişdi. Sentyabr ayında Nəmənkandakı klubda Əli Nəzminin rejissorluğu ilə "Şeyda, ya ki həbsdəki inqilabçılar" və "Dursunəli və ballıbadı" əsərləri oynanılmışdır. Dekabr ayında Daşkənddə "Şərq azadlığı ittifaqı" tərəfindən təşkil edilmiş böyük konsertdə Azərbaycanın teatr və musiqi dəstələri fəal iştirak etmişlər. 1920-ci ilin fevral ayında Daşkəndin şuralar teatrında (əvvəllər Kolizey teatrı adlanırdı) azərbaycanlı gənc teatr həvəskarları A.Abdullazadə və R.Məmmədovun iştirakı ilə Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyası müvəffəqiyyətlə göstərilmişdir. Ə.Ələsgərovun rejissorluğu ilə onların göstərdiyi "Kəblə Xudu", "Evliykən subay" və "Bizim kirayənişin özünü öldürdü" əsərlərinin tamaşaları da maraqla qarşılanmışdır.

Mərvdə isə teatr işini öz arxasınca aparan Yusif Heydərzadə idi. Onun rəhbərliyi ilə 1912-ci ilin oktyabrında Mərvdə yaşayan azərbaycanlı gənclər tərəfindən J.B.Molyerin "Zoran təbib" komediyası oynanılmışdı. Bu tamaşaya baxanlar içərisində çoxlu türkmən ziyalıları və gəncləri də var idi. Oyun qurtardıqdan sonra türkmənlər Yusif Heydərzadənin yanına gələrək, belə tamaşaları aparıb obalarda yaşayan və teatrın nə olduğunu bilməyən türkmən kəndlilərinə göstərməyi xahiş edirlər" [5].

Teatrı fədakarcasına sevən Yusif Heydərzadə nəticə etibarilə öz həyatını bu yolda qurban verdi. Belə ki, inqilabdan əvvəl müsəlman alə-



mində, hər yerdə olduğu kimi, Mərvdə də yenilik ilə köhnəlik, mədəniyyət ilə cəhalət arasında amansız mübarizə gedirdi. Yusif Heydərzadə də 1911-1914-cü illərdə Mərvdə çalışan gənc tərəqqipərvər müəllim idi. O, "Əhmədiyyə" məktəbində dil və ədəbiyyatdan dərs deyir, Bakı qəzetlərində və "Molla Nəsrəddin" jurnalında tarixi, elmi və ictimai hadisələrə aid məqalələrlə çıxış edirdi. Eyni zamanda, Mərvin gənc həvəskarlarını başına toplayıb, şəhərin mədəniyyət və maarif işlərinə maddi yardım məqsədilə, teatr tamaşaları təşkil edirdi. O, hətta bu sahədə qələmini təcrübədən keçirib "Həvəskarlar icmai", "Vəfalı Şərəf", "Kəbinim halal, canım azad" adlı pyeslər yazıb tamaşaya qoymuş və Bakıda nəşr etdirmişdi. Təbiidir ki, Heydərzadənin bu fəaliyyəti cəhalətpərəstləri hiddətləndirir və ona qarşı düşmənçilik törədirdi. O, göstərdiyi tamaşaların birində məktəb skamyalarını satıb pullarını mənimsəyən Rzabala kimi üzdəniraq möminləri səhnədə ifşa etdiyi üçün onun üzərinə böhtan atıb, polis əlinə verir və həbsxanada öldürürlər. Bu qanlı hadisəni "İqbal" qəzeti təsvir edərək yazır: "Mərvdə teatr tamaşası göstərildi. Şəhərimizin sərvətlilərindən İran taciri Rzabala Qasımov teatrdan sonra Heydərzadəyə küçədə təsadüf edir. Başqa adamlar da varmış. Heydərzadə teatrın necə keçdiyini sual etdikdə Rzabala teatrı pisləməklə bərabər, deyir ki, "Siz oyunbazlarsınız. Xalqın parasını almaqdan ötəri oyunxana açmısınız".

Bu mübahisə nəhayət münaqişəyə çevrilincə Heydərzadə polis tərəfindən həbs edilir və bir nəfər çəkməsilən polis kamerasında onu güllə ilə vurub öldürür. Gənclər Heydərzadəni el adətincə basdırmaq istədikdə mollalar: - o kafir idi, dinsiz idi. Biz ona meyid namazı qılmarıq - deyirlər və cənazə ortalıqda qalır. Nəhayət bir ləzgi ruhanisi gəlib onun namazını qılır və torpağa tapşırırlar" [yenə orada].

***Göründüyü kimi Azərbaycan-Orta Asiya teatr əlaqələrinin yaranışı, təşəkkülü və inkişafı məhz belə əzablı yollardan keçmişdir. Bu isə həmin əlaqələrin əhəmiyyətini daha da artırır.***

**Ədəbiyyat**


1. Azərbaycan teatrının salnaməsi (1850-1920). Toplayanı və tərtib edəni Qulam Məmmədli. Bakı: Azərnəşr, 1975.
2. Rəhmanov M. Özbək teatr tarixi, 2 cilddə, II cild. Daşkənd: Fan nəşriyyatı, 1968.
3. "Mehnətkeşlər tavuşu" qəzeti, 29 mart 1919-cu il.
4. "İştirakiyun" qəzeti, 11 aprel, 1919-cu il.
5. "İqbal" qəzeti, 1 aprel 1914-cü il.